**Məlakə Elyasova Ağasəf qızı**

**LİRİK ŞEİRLƏRİN TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ**

Ədəbiyyat dərslərinin təsirli ola bilməsi üçün dərslərdə bir üsul və vasitələrdən deyil, müxtəlif təlim texnologiyalarının tətbiqinə önəm verilməlidir. Xüsusilə də, ədəbiyyat dərsliklərinin proqramlarında verilən məqsədlərin gerçəkləşməsi, bilik, bacarıq və vərdişlərin şagirdlərə təsirli bir formada qazandırıla bilməsi üçün ədəbiyyat müəllimlərinin istifadə etdikləri üsul və vasitələrin zənginliyinə sahib olması vacibdir.

Ədəbiyyat dərslərində yer alan mövzular baxımından müxtəlif təlim texnologiyalarından istifadə zərurəti ortaya çıxır. Nümunə üçün orta məktəbin V sinfində ən çox istifadə edilə biləcək yeni təlim texnologiyaları bunlardır: Qərarlar ağacı, sual- cavab, beyin həmləsi (əqli hücum), akvarium, təqdimat, ikihissəli gündəlik.

**Qərarlar ağacı-** Bu zaman sinifdəki şagirdlər qruplara ayrılır, bu qruplar yarımdairə şəklində yerləşdirilir. Qərarlar ağacı necə? və nə üçün? suallarına cavab verməklə düşünməyə sövq edən ən vacib yeni təlim texnologiyalarından biridir. Şagirdlərə qarışıq və çətin görünən hədəfə necə çatmağına dair sistematik bir vasitədir.

Şagirdlər bəhs edilən bir mövzu haqqında düşünərkən öz fərziyyələrini irəli sürməkdən ötəri və ya doğru hədəfə çatmaq üçün həmən mövzunun müsbət və mənfi cəhətləri sadalamalı və bunun ətrafında necə? və nə üçün? suallarına cavab verən düşüncələrini ağac budaqlarına bənzər şəkildə ifadə etməlidirlər. Şagirdlər bu fikirləri sadalayan zaman ağac gövdəsi şaxələnir (budaqlanır). Bu şaxələnmə bitdiyi zaman yan tərəfə yıxılmış ağac şəkli ortaya çıxır.

**Beyin həmləsi (əqli hücum)-** Bir problem həll etmə yolu və bir mübahisə növüdür. Bu texnologiya iştirakçıların xəyallarının və xəyala dayalı olaraq yaradıcılıqlarını işə salma üsuludur. Beyin həmləsini bir cümlə ilə ifadə etsək: insanların uzun müddət ərzində düşündükləri yaradıcı fikirlərini bir qrup insan qısa zaman ərzində əldə edir.

Beyin həmləsinin aşağıdakı mərhələləri var:

1. Problemin qoyulması və müzakirəsi;
2. Problemin yenidən açıqlanması;
3. Adaptasiya (uyğunlaşma);
4. Beyin həmləsi;
5. Ağla gəlməyən fikir.

**Qeyd:** Problem qrupa daxil olan şagirdlər tərəfindən qəbul edilməli, bu səbəblə problem bir neçə dəfə təkrarlanmalı və məqsədəuyğun olmalıdır.

Əvvəlcə şagirdlərə beyin həmləsinin texnologiyası haqqında məlumat verilir, burada ən azı 5, ən çoxu 20 şagird iştirak edə bilər. Hətta bütün sinif də iştirak edə bilər. Bir istiqamətverən və bir və ya iki qeydiyyatçı olur. İstiqamətverən iştirakçılara sıra ilə söz verir. Hər növbəsi gələn şagird bir fikir və ya təklif söyləməlidir. Bununla bərabər növbəsi gələn şagird əgər bir fikir irəli sürməyəcəksə, “PAS” deməlidir. Qrupda hər kəs “PAS” deyincəyə qədər beyin həmləsi davam edir. Mövzuya uyğun olmayan fikir və təkliflər müzakirə edilmir.

Qeydiyyatçı bütün təklifləri qeyd edir. Kompyuter və ya dinləmə cihazlarından istifadə edilməməlidir. Təkrar olunan təklif və fikirlər birləşdirilir. İstiqamətverən şagird təklif və fikirlərə öz münasibətini bildirməməlidir.

**Akvarium-** şagirdlərin maraqlandığı və çətinlik çəkdiyi mövzuların öyrədilməsində çox təsirli üsuldur. Şagirdlərin müzakirə və qrupla işləmək bacarıqlarını artıran bir yeni təlim texnikasıdır. Bu üsuldan istifadə edərkən sinifdə uyğun bir yerə bir çevrə çəkilir. Bu çevrənin ortasına boş stul qoyulur, şagirdlər isə çevrənin kənarında dayanır. Mövzu haqqında fikir söyləmək istəyən şagird stula oturur və düşüncəsini söyləyir. Daha sonra yerini bir başqa şagirdə verərək çevrənin kənarına çıxır.

Müzakirəni aparmaq və davam etdirmək üçün əvvəlcədən mövzu ilə bağlı suallar hazırlanmalıdır. Müzakirə sırasında çevrənin kənarındakılar səssiz olmalı, sadəcə stula oturan şagird danışmalıdır. Çevrənin kənarında duran şagirdlər müzakirələri qeyd etməli, müzakirə bitdikdən sonra bütün sinif qarşısında elan edilməlidir.

**Qeyd:** Bu üsul bir mövzunu araşdırmaq üçün şagirdlərin bir neçə qrupa ayrılması ilə də aparıla bilər. Hər qrup özünü təmsil edən bir nümayəndə seçər və mövzu haqqında qrupun və özünün fikirlərini elan edər. 10- 15 dəqiqəlik müzakirədən sonra nümayəndə öz qrupuna qayıda bilər.

**Təqdimat-** İnteraktiv təlim zamanı təqdimat mühüm əhəmiyyət kəsb edir. Məktəblilər tədqiq etdikləri məsələ barədə əldə olunan nəticələri sinif qarşısında müxtəlif formalarda (çıxış, yazı işi, cədvəl, sxem və s.) təqdim edirlər.

Təqdimat zamanı şagird problemin mahiyyəti ilə bağlı fikirlərini aydın, ardıcıl şəkildə çatdırmalıdır. Mövzu, problem dəqiq şərh edilməli, informasiya-kommunikasiya vasitələri, illüstrasiyalar, fotoşəkillərdən istifadə olunmalıdır.

Bununla yanaşı, ədəbiyyat təlimində özünü doğrultmuş, uzun illərin sınağından uğurla çıxmış ənənəvi metodlardan da yeri gəldikcə istifadə oluna bilər. Məsələn, müasir ədəbiyyat dərslərini ənənəvi yaradıcı oxu metodunun tərkib hissəsi olan, kurikulumda alt standart kimi qeyd edilən ifadəli oxusuz təsəvvür etmək qeyri-mümkündür.

Yaxud izahlı oxudan istifadə həmişə faydalı olacaqdır. Şagirdlərin müstəqil izah etməkdə çətinlik çəkdikləri mətləblərin, mətnaltı mənaların izahlı oxu ilə aydınlaşdırılmasına ədəbiyyat dərslərində tez-tez ehtiyac yaranır (1,19)

**İkihissəli gündəlik-** Bunun pedaqoji ədəbiyyatda bəzən “sitat” və onun “şərhi” (yəni mətndən sitat seçilir və nə üçün seçilməsinin səbəbi şərh olunur) kimi qələmə verilməsi doğru sayıla bilməz. Bu, onun imkanlarının məhdudlaşdırılması deməkdir. Şagirdlər bu gündəlikdə (“şərh” bölməsində), yeri gəldikcə, müstəqil aydınlaşdıra bilmədikləri sualları da yazırlar. Eləcə də mətndən seçilərək yazılan qeydlər şagirdlərdə hansı hiss və düşüncə oyadıbsa, həyat təcrübəsi ilə səsləşibsə, yadına müəyyən əhvalat salıbsa və s. gündəliyin şərh bölməsində yazıla bilər. Məhz buna görə də “sitat” və “şərh” sözləri gündəliyin məzmununa uyğun gəlmir.

"Təcrübə göstərir ki, cədvəlin birinci tərəfində "əsərdə diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfdə "bunun səbəbi" yazılması məqsədəuyğundur. "İkihissəli gündəlik" müxtəlif formalarda tətbiq oluna bilər. Şagirdlər mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparırlar. Əsərin oxusu, qeydlərin aparılması başa çatdıqdan sonra şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər" (1,14)

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı **Müzakirə-** mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır.

Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir. Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu, düz idimi? Nə üçün?" kimi suallardan istifadə olunur.

Ədəbiyyat dərslərinin hazırlanması zamanı tələb olunan standartlar, fəal (interaktiv) təlim üçün lazım olan məzmun xətləri, əsas və alt standartlar xüsusi diqqətlə seçilməli və istifadə olunmalıdır. Dərslərin səmərəli təşkili ilə əlaqədar müəllim dəyişilməyən əsas standartları və alt standartları mükəmməl bilməli, müəllim yaradıcılığı və təşəbbüskarlığına imkan verən yeni təlim texnologiyalarından istifadə şagird- şagird, şagird- müəllim əməkdaşlığı diqqət mərkəzində saxlanılmalıdır. V sinif ədəbiyyat fənninin kurikulumunda əks olunan bütün tələblər bu sinfi bitirən şagirdlərin sonda hansı nailiyyətləri- bilik və vərdişləri qazandıqlarını labüd edir.

**Ə. Cavad "Azərbaycan! Azərbaycan!"**

**(**məzmun üzrə iş**)**

**Mövzu:** Ə. Cavad "Azərbaycan! Azərbaycan!"

**Standartlar:** 1.1.1; 2.1.2; 3.1.2.

1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır;

1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur;

1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh);

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir;

3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.

**İnteqrasiya:** Tarix, həyat bilgisi

**Texnikalar:** Beyin həmləsi (əqli hücum), müzakirə

**İş forması:** böyük və kiçik qruplarla iş

**Resurslar(təchizat):** lent yazısı, iş vərəqləri, dərslik

**Dərsin təlim nəticələri (**1.1.1; 1.1.2; 1.1.5; 2.1.2; 3.1.2**):**

- şeirlərdə tanış olmayan sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdırır;
- əsərin ifadəli oxusunda nitq texnikasının tələblərinə əməl etmək;
- bədii təsvir vasitələrinin şeirdə rolunu aydınlaşdırır;
- şeirin ideyasını müəyyənləşdirir;
- şeirlə bağlı fikirləri ardıcıl şərh edir;

## Dərsin gedişi

**1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması.**

**2.Motivasiya:** Azərbaycana aid musiqi parçası.

Tədqiqat sualı: Vətən haradır? Vətənimiz Azərbaycan haqqında nə bilirik?;

**3.Tədqiqatın aparılması:** Kiçik qruplarla iş üçün tapşırıqlar verilməli, qruplara ad verilməlidir (şeirin məzmununa uyğun).

**Qrupların adları:** dağlar, orman, xəzər, sərvət qrupları.

**Dağlar qrupu**

- Şeirdəki çətin söz və ifadələrin məzmununu lüğət vasitəsilə aydınlaşdırın: orman, bar, oymaq, bəhri- xəzər, şölə salmaq, fələk, laçın, tərlan;

## Orman qrupu

- Şeirin ilk üç bəndini ifadəli oxu üçün hazırlayın və oxuyun, aldığınız təəssüratı qeyd edin.

İfadəli oxuya hazırlaşarkən mətnin üzərində şərti işarələrin qoyulması; lazımdır:

Dağların başı qarlı,
Sinəsi yaşıl ormanlı,
Dərələrin şirin barlı,
Azərbaycan! Azərbaycan!

Durna gözlü bulaqların,
Cənnət kimi yaylaqların,
Geniş- geniş oymaqların,
Azərbaycan! Azərbaycan!

Ormanında maral gəzər,

Çöllərində ceyran süzər,
Göllərində qazlar üzər,
Azərbaycan! Azərbaycan!

**Xəzər qrupu**

- Şeirdəki təsvir və ifadə vasitələrini müəyyən edin.
  Təsvir və ifadə vasitələri (bənzətmə, təşbeh, epitet) haqqında məlumat verir. Sonra şeirdən bunlara aid misallar gətirir.

**Sərvət qrupu**

- Şeirdə ifadə olunan fikri ardıcıllıqla qeyd edin.

**4.Məlumat mübadiləsi:** Qruplar (dağlar, orman, xəzər, sərvət) ayrılmış vaxt ərzində tədqiqatlarının nəticələri ilə yoldaşlarını tanış edirlər.

**5.Məlumatın müzakirəsi və təşkili:**

1)Şeir nə barədə idi? Şeirdə hara təsvir olunur?;

2)Şeirdəki çətin sözlər və ifadələrin mənasını anladınızmı?;

3)Yoldaşlarınızın ifadəli oxusu sizi qane etdimi?;

4)Şeirdə hansı təsvir və ifadə vasitələri verilmişdir?.

**6.Nəticənin çıxarılması:** Müzakirədən sonra fikirlər ümumiləşdirilir. Fərziyyələr tutuşdurulur. Nəticədə yeni bilik əldə edilir.

**7.Yaradıcı tətbiqetmə:** Sinifdə: şeiri intonasiya ilə söyləmək yarışı; evdə: təqdim olunmuş mövzu üzrə esse hazırlamaq.

**8.Refleksiya (qiymətləndirmə, bütün mərhələlərdə aparıla bilər)**

| **Meyarlar** | **Qruplar** | | | |
|---|---|---|---|---|
| | **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** |
| Aydınlaşdırma | | | | |
| İfadəli oxuma | | | | |
| Lüğətdən istifadə etmə | | | | |
| Fikrini şərh etmə | | | | |

**ƏDƏBİYYAT SİYAHISI**


1. Hüseynoğlu S, Həsənli B, Səfərova Ə, Quliyev Ə. 5- ci sinif Ədəbiyyat fənnindən Müəllim üçün metodik vəsait. Bakı: "Bakınəşr", 2012, 208 s.
2. Hüseynoğlu S, Həsənli B, Səfərova Ə, Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5-ci sinif üçün Ədəbiyyat dərsliyi. Bakı: "Bakınəşr", 2013, 208 s.
3. Veysova Z. Fəal( interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı, 2007
4. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2014, 193 səh.



***Açar sözlər:*** *ədəbiyyat, lirik şeir, kurikulum, təlim texnologiyaları*

*Key words: literature, lyric poetry, curriculum, training technology*

*Ключевые слова: литература, лирическая поэзия, куррикулум, технологии обучения*



**SUMMARY**

The organization of courses of artistic heritage, training, maintenance and analysis of the high-level, independent thinking, and find ways stiuasiyalardan certain intellectual skills base is one of the most important tools in the development of new methods and techniques - forms of work. It is a model of modern learning theory, to construct a new scientific study of topical issues, to explore the best way to your destination.

**РЕЗЮМЕ**

Организация курсов художественного наследия, обучения, содержания и осуществления анализа высокого уровня, самостоятельного мышления, и найти пути определенная интеллектуальная навыки база является одним из наиболее важных инструментов в разработке новых методов и приемов - форм работы. Это модель современной теории обучения, чтобы построить новое научное исследование актуальных вопросов, чтобы исследовать наилучший путь к месту назначения.


**RƏYÇİ: dos.S.Abbasova**